**Azərbaycan Respublikası vergilər nazirinin**
**«  »______ 2006-cı il tarixli _____________**
**nömrəli əmri ilə təsdiq edilmişdir.**

## Dövlət vergi orqanlarında daxili xidməti intizam

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. «Dövlət vergi orqanlarında daxili xidməti intizam Qaydaları» (bundan sonra Qaydalar) Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, «Azərbaycan Respublikası Vergilər Nazirliyi haqqında», «Dövlət vergi orqanlarında xidmət haqqında» Əsasnamələrin, «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2001-ci il tarixli 539 nömrəli Fərmanının, «Vergi işçisinin etik davranış Kodeksi»nin və bu münasibətləri tənzimləyən digər normativ hüquqi və təşkilati-sərəncam sənədlərinin tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar vergi orqanları vəzifəli şəxslərinin (və ya əməkdaşlarının) xidməti fəaliyyətlərində ümumi davranış qaydalarını müəyyən edir.

1.3. Vergi orqanlarının bütün vəzifəli şəxslərinin (və ya əməkdaşlarının) ayrı-seçkilik, zorakılıq və təhqiredici hərəkətlərdən kənar, sağlam mühitə malik, həm fərdi, həm də kollektiv maraqlara üstünlük verilən iş şəraitində işləmək hüququ vardır. Normal iş mühiti aşağıdakı prinsiplər üzərində qurulur:

- obyektivlik, ədalətlilik və qarşılıqlı yardım;
- ayrı-seçkiliyin, zorakılıq hərəkətlərinin və təhqirlərin olmaması;
- fərdi və mədəni xüsusiyyətlərə hörmət;
- qarşılıqlı münasibətlər və xidməti pillələrlə irəliləmə imkanı;

## 2. Vergi orqanlarında xidmətin şərtləri

2.1. Vergi orqanlarının vəzifəli şəxslərinə (və ya əməkdaşlarına) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tam iş vaxtı şamil edilir.

2.2. Əmək qanunvericiliyi ilə müəyyən edilmiş, habelə əmək müqaviləsi və kollektiv müqavilədə nəzərdə tutulduğu hallarda işçilərin ayrı-ayrı kateqoriyalarına qısaldılmış iş vaxtı müəyyən edilə bilər.

2.3. Müstəsna hallarda vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə nəzərdə tutulan hallarda iş vaxtından artıq işlərə, həmçinin gecə vaxtı, bayram və istirahət günlərində işə cəlb oluna bilərlər. Belə hallarda onların əməyi Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ödənilir.

2.4. Vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada əsas vəzifələri ilə yanaşı digər vəzifələri müvəqqəti icra etməyə görə əlavə əmək haqqının ödənilməsi hüququna malikdirlər.

2.5. Vergi orqanının vəzifəli şəxslərinin Vergilər Nazirliyinin sərəncamında saxlanılması vergilər naziri tərəfindən müəyyən edilir.

## 3. Xüsusi geyim və xidməti vəsiqə

3.1. Vergi orqanlarının vəzifəli şəxslərinin (və ya əməkdaşlarının) xüsusi geyimi və xarici görünüşü onların peşəkar fəaliyyətinə və xüsusi rütbəsinə uyğun olmalıdır. Əməkdaşların xarici görünüşü ətrafdakıların onlara münasibətinə və vəzifələrini yerinə yetirməsinə təsir edir. Vəzifəli şəxslərin geyimi onların vəzifələrinə və müəyyən edilmiş standartlara uyğun, xarici görünüşü təmiz və səliqəli olmalıdır.

3.2. Vergi orqanlarının vəzifəli şəxslərinə xüsusi geyim formaları müəyyən olunmuş təchizat norması üzrə pulsuz verilir və xüsusi geyim formasından istifadə Vergilər Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydalara uyğun həyata keçirilir.

3.3. Xidməti vəzifələrinin icrası zamanı tanınmaları üçün vergi orqanlarının vəzifəli şəxslərinə xidməti vəsiqə verilir. Xidməti vəsiqədən digər məqsədlər üçün istifadə edilməsi qadağandır. Vəzifəli şəxslər vəsiqəni səliqəli vəziyyətdə saxlamalı və xidmətlərinə xitam verildikdə müvafiq vergi orqanına təhvil verməlidirlər.

3.4. Xidməti vəsiqələrdən istifadə olunmasına nəzarət Vergilər Nazirliyi tərəfindən müəyyən edilən qaydalara əsasən həyata keçirilir.

## 4. Xidməti intizam

4.1. Vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) əmək funksiyalarını yerinə yetirərkən Azərbaycan Respublikasının qanunvericiliyinə, vəzifə təlimatlarına, Vergilər Nazirliyinin və bilavasitə tabe olduqları rəhbər vəzifəli şəxslərin səlahiyyətləri daxilində verdikləri əmr və göstərişlərə əməl etməlidirlər.

4.2. Vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) yüksək mənəvi keyfiyyətlərə və prinsipiallığa malik olmalı, vergi qanunvericiliyinin pozulması hallarına qarşı barışmaz mövqe tutmalı, xidməti fəaliyyətlərini düzgünlük və ədalətlilik prinsipləri əsasında qurmalıdırlar.

4.3. Vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) qanunçuluğu, xidmət intizamını pozmamalı, subordinasiyaya riayət etməli, qanuna zidd hərəkətlərə yol verməməlidirlər.

4.4. Dövlət vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) açıq-aşkar qanunazidd əmr və ya göstəriş aldıqda qanunu rəhbər tutmalı, bu barədə birbaşa yuxarı rəhbərliyə məlumat verməlidirlər.

4.5. Açıq-aşkar qanuna zidd əmri və ya göstərişi icra etməmək məsuliyyətə səbəb olmur. Belə əmri və ya göstərişi icra edən dövlət vergi orqanının vəzifəli şəxsi (və ya əməkdaşı) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

4.6. Vergi orqanlarının vəzifəli şəxslərinin cərgə düzülüşü, mərasimlərdə rəsmi keçidi və xidməti salamlaşma Vergilər Nazirliyi tərəfindən müəyyən edilən müvafiq qaydalara əsasən həyata keçirilir.

4.7. Vəzifəcə və rütbəcə eyni olan vəzifəli şəxslər eyni vaxtda salamlaşmalıdırlar.

4.8. Vergi orqanlarının vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən dövlət və ictimai mənafeləri şəxsi mənafeyindən üstün tutmalı, nümunəvi davranışları ilə vətəndaşların, o cümlədən vergi ödəyicilərinin etimadını qazanmalıdırlar.

4.9. Vergi orqanlarının vəzifəli şəxsləri xidməti vəzifələrini dəqiq və peşəkarlıqla yerinə yetirməli, qanunvericiliyin tələblərinə və yüksək əxlaqi prinsiplərə riayət etməlidirlər.

4.10. Vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) vəzifələrinin icrası ilə əlaqədar vergi ödəyicilərinə dair onlara məlum olan kommersiya sirrinin məxfiliyini təmin etməlidirlər. Kommersiya sirrinin yayılması, şəxsi maraq üçün istifadə edilməsi yolverilməzdir.

4.11. Vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) şəxsi həyatda vergi orqanlarına ziyan vura və ya onu nüfuzdan sala bilən davranışa və ya şəraitin yaradılmasına yol verməməli, etik normalara əməl etməlidirlər.

4.12. Vergi orqanlarının vəzifəli şəxslərinin davranışı bu orqanın nüfuzunun qorunmasına xidmət etməlidir.

4.13. Vergi orqanlarının rəhbər vəzifəli şəxsləri tabeliklərində olan vəzifəli şəxslərə (və ya əməkdaşlara) davranışları ilə nümunə olmalı, onların müvafiq qanunvericiliyə, qəbul edilmiş normativ-hüquqi aktlara dair lazımi biliklərə malik olmalarına nəzarət etməli, vəzifə borclarının və əmək funksiyalarının yerinə yetirilməsi üçün şərait yaratmalıdır.

4.14. Vergi orqanlarının rəhbər vəzifəli şəxsləri tabeliklərində olan vəzifəli şəxslərin (və ya əməkdaşların) şəxsi qayğıları ilə maraqlanmalı və onlar tərəfindən əmək funksiyalarının lazımınca yerinə yetirilməsinə maneçilik törədən səbəblərin aradan qaldırılması üçün səlahiyyətləri daxilində bütün mümkün tədbirləri görməlidirlər.

4.15. Vergi orqanlarının rəhbər vəzifəli şəxsləri tabeliklərində olan vəzifəli şəxslər (və ya əməkdaşlar) tərəfindən daxili xidməti intizam qaydalarının pozulması, icra və əmək intizamına əməl edilməməsi, əmək funksiyalarının lazımınca yerinə yetirilməməsi hallarına qarşı barışmaz olmalı, belə halları aşkar etdikdə onların barəsində səlahiyyətləri daxilində intizam tənbehi tədbirləri görməli və ya müvafiq vəzifəli şəxslər qarşısında məsələ qaldırmalı, xüsusi geyim və salamlaşma qaydalarını pozan vəzifəli şəxsləri yerindəcə məzəmmət etməli və ya onların barəsində təqdimat verməlidirlər.

4.16. Vergi orqanlarının vəzifəli şəxslərinin hüquqları qanunla qorunur və onların rəhbər vəzifəli şəxslərin hərəkətlərindən yuxarı vergi orqanına və məhkəməyə şikayət etmək hüquqları vardır.

4.17. Vergi orqanlarının əməkdaşları hər hansı səbəbdən işə çıxmadıqda bu barədə birbaşa rəhbərliyinə məlumat verməlidir.

## 5. Vergi orqanlarının vəzifəli şəxslərinə tətbiq edilən həvəsləndirmə və intizam tənbehi tədbirləri

5.1. Xidmətdə yüksək müvəffəqiyyətlərə, uzün müddət qüsursuz xidmətə görə vergi orqanlarının vəzifəli şəxslərinə «Dövlət vergi orqanlarında xidmət haqqında» Əsasnamənin 45-ci maddəsində nəzərdə tutulmuş həvəsləndirmə tədbirləri görülür. Vergi orqanının digər əməkdaşlarına həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiqi Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən həyata keçirilir.

5.2. Vergi orqanının vəzifəli şəxsi daxili xidməti intizam qaydalarını, əmək intizamını pozduqda, xidməti vəzifələrini lazımi qaydada icra etmədikdə və

qanuna zidd hərəkətlərə yol verdikdə, onlar barəsində «Dövlət vergi orqanlarında xidmət haqqında» Əsasnamənin 46-cı maddəsində nəzərdə tutulmuş intizam tənbehi tədbirləri görülə bilər.

5.3. İntizam tənbehinin qüvvədə olduğu müddətdə vergi orqanlarının vəzifəli şəxsləri barəsində «Dövlət vergi orqanlarında xidmət haqqında» Əsasnamənin 45.6-cı maddəsində nəzərdə tutulmuş həvəsləndirmə tədbiri istisna olmaqla digər həvəsləndirmə tədbirləri görülmür, habelə intizam tənbehi götürülmədən növbəti xüsusi rütbə verilmir.

5.4. İntizam tənbehi verilərkən vergi orqanlarının vəzifəli şəxsinin kollektivdəki nüfuzu, peşəkarlıq səviyyəsi və xidmətə münasibəti, törətdiyi xətanın ağırlığı və xarakteri nəzərə alınmalıdır.

5.5. İntizam tənbehi vəzifəli şəxsin xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt, habelə törədilmiş xətadan 6 ay, müvafiq təftiş və ya yoxlamanın nəticələrinə görə isə onun törədildiyi gündən 2 ildən artıq vaxt keçdikdən sonra tətbiq edilə bilməz.

5.6. İntizam tənbehi verilən gündən 6 ay müddətində qüvvədə olur.

5.7. Həvəsləndirmə və intizam tənbehi tədbirlərini tətbiq etmək hüquqları olan şəxslərin siyahısı vergilər naziri tərəfindən müəyyən edilir.

5.8. Vergi orqanlarının rəhbər vəzifəli şəxsləri həvəsləndirmə və intizam tədbirlərinin tətbiqi üzrə onlara verilmiş səlahiyyətləri aşarsa, qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar və səlahiyyət həddini aşmaqla verilmiş əmr hüquqi qüvvəsi olmayan hesab edilir.

5.9. Vergi orqanlarının vəzifəli şəxsləri intizam məsuliyyətinə cəlb edilmələri haqqında əmrlə tanış edilməlidirlər.

5.10. Vergi orqanının vəzifəli şəxsi (və ya əməkdaşı) intizam məsuliyyətinə cəlb edilməsi haqqında əmrdən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yuxarı vergi orqanına şikayət edə bilər.

5.11. Şikayət edilməsi intizam tənbehi tədbirlərinin həyata keçirilməsini dayandırmır.

5.12. Şikayətlə müraciət edən şəxsə rəsmi qəbul edilmiş qərar barədə məlumat verilir.

5.13. Vəzifəli şəxs yuxarı vergi orqanının qərarlarından Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət edə bilər.

5.14. Dövlət vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) müəyyən edilmiş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

5.15. Dövlət vergi orqanlarının vəzifəli şəxsləri (və ya əməkdaşları) öz hərəkətlərinin qanuniliyi üçün cavabdehdirlər.